# İqtisadiyyatın şaxələndirilməsi qeyri-neft sektorunun inkişafına xidmət edir

**Azərbaycanın davamlı inkişafının təmin olunmasında, sözsüz ki, ölkədə yaradılan siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən olan regionların sosial-iqtisadi inkişafı proqramlarının da müstəsna əhəmiyyəti vardır.**

Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə və regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda qarşıya çox mühüm vəzifələr qoyulmuşdur. Bu vəzifələr əsasən dünya enerji bazarındakı qeyri-sabitlik və digər neqativ proseslərin Azərbaycan iqtisadiyyatına mümkün təsirlərin minimuma endirilməsi istiqamətində görülən tədbirlərdən ibarətdir. Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qabaqlayıcı tədbirlərin, həyata keçirilən islahatların nəticəsidir ki, 2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. Belə ki, ümumi daxili məhsul 1,1 faiz, sənaye 2,4 faiz, qeyri-neft sənayesi 8,4 faiz, kənd təsərrüfatı 6,6 faiz, əhalinin gəlirləri 5,7 faiz, orta aylıq əmək haqqı 4,5 faiz artıb. İqtisadiyyata 20 milyard dollar investisiya qoyulub, 2004-2015-ci illərdə 1,5 milyona yaxın yeni iş yeri açılıb. Bunun çox hissəsi regionların payına düşür. Regionlarda yaradılan iş yerləri, əlbəttə ki, ölkə iqtisadiyyatının çoxşaxəli inkişafına xidmət edir. Azərbaycanın davamlı inkişafının təmin olunmasında sözsüz ki, ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi siyasətinin və onun prioritet istiqamətlərindən olan regionların sosial-iqtisadi inkişafı proqramlarının da müstəsna əhəmiyyəti vardır.

Azərbaycan Prezidenti İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində bu məsələyə toxunaraq deyib: "Azərbaycan demokratiya yolu ilə inamla irəliləyir. Bu, bizim şüurlu seçimimizdir. Mən tam əminəm ki, köklü iqtisadi islahatlar və iqtisadi inkişaf demokratik prosesdən ayrı təmin oluna bilməz.

Ona görə Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır və aparılacaq. Keçən ilin sonunda parlament seçkiləri də bizim demokratiyaya nə qədər sadiq olduğumuzu bir daha sübut etdi... Azərbaycan xalqı bir daha bizim siyasətimizə öz böyük dəstəyini göstərmişdir. Buna görə mən Azərbaycan vətəndaşlarına minnətdaram və Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, dünyada baş verən bütün hadisələrə, böhranlara baxmayaraq, Azərbaycan bundan sonra da inamla inkişaf edəcəkdir".

Statistikaya nəzər salsaq görərik ki, Azərbaycan iqtisadiyyatı sabit və dayanıqlıdır. Belə ki, son illərdə respublikamızda diversifikasiyalı, neftdənkənar iqtisadiyyat qurulması üçün böyük işlər görülüb, zəruri infrastruktur yaradılıb, hüquqi baza möhkəmləndirilib. Bu kimi amillər isə ölkəmizin yaranmış gerilikdən tez bir zamanda çıxacağına inam yaradır. Həmçinin dövlət başçısının bu istiqamətdə qebul etdiyi mühüm qərarlar, iqtisadiyyatın daha geniş və səmərəli şaxələndirilməsinə, investisiya qoyuluşunun, ixracyönümlü daxili istehsalın təşviq edilməsinə yönələn fərman və sərəncamlar imzalaması bunu deməyə əsas verir.

Ümumiyyətlə, ötən il dövlət proqramlarının icrası davam etdirilib. Bu çərçivədə həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, 2015-ci ildə qeyri-neft sənayesində müasir müəssisələrin yaradılmasının dəstəklənməsi, sənaye parklarının və məhəllələrinin təşkili işləri davam etdirilib. Bunun sayəsində ötən il 270 sənaye müəssisəsi, o cümlədən texniki avadanlıqlar, metal konstruksiyalar, beton məmulatları zavodları, tekstil fabriki və digər müəssisələr açılıb, bir sıra mühüm sənaye obyektlərinin tikintisinə başlanıb. Hazırda Sumqayıt Kimya Sənaye, Balaxanı Sənaye, Mingəçevir və Qaradağ Sənaye parklarının təşkili, Neftçala Sənaye Məhəlləsində infrastrukturun yaradılması işləri intensiv şəkildə davam etdirilir. Sumqayıt Kimya Sənaye Parkında birinci məhəllə üzrə infrastrukturun qurulması, demək olar ki, başa çatdırılıb. Burada dörd rezident tərəfindən 1 milyard ABŞ dollarından çox investisiyanın yatırılması planlaşdırılır. Artıq Parkın rezidenti "Azertexnolayn" şirkəti dəyəri 45 milyon ABŞ dollar olan 60 min ton boru məhsulunun ixracı barədə müqavilə imzalayıb.

Eyni zamanda Balaxanı Sənaye Parkında xarici infrastrukturun qurulması əsasən başa çatdırılıb, 4 rezident tərəfindən 10 milyon manatdan çox investisiyanın yatırılması nəzərdə tutulur.

Azərbaycan İnvestisiya Şirkətinin əsas səhmdarlarından olduğu və Qaradağ Sənaye Parkının rezidenti Bakı Gəmiqayırma zavodunda dəyəri 40 milyon dollar olan ilk sifariş yerinə yetirilib və hazırda dəyəri 400 milyon dollardan yuxarı olan sualtı tikinti gəmisinin və üç ədəd sərnişin gəmisinin tikintisi aparılır. İndiyədək isə Azərbaycan İnvestisiya Şirkəti tikinti materiallarının istehsalı, gəmiqayırma, kənd təsərrüfatı məhsullarının istehsal və emalı, logistika və sair sahələr üzrə ümumi dəyəri 1,1 milyard dollardan artıq layihələrdə iştirak edib. Bu layihələrə 450 milyon dollar birbaşa xarici investisiya cəlb olunub. Layihələr çərçivəsində İsveçrə, Almaniya, Sinqapur, Türkiyə və digər ölkələrin qabaqcıl texnologiya və təcrübəsi tətbiq olunub.

Neftçala Sənaye Məhəlləsində isə yaxın aylarda sahibkarlar tərəfindən ümumi investisiya məbləği 20 milyon manatdan çox olan 7 layihə üzrə müəssisələrin qurulmasına başlanacaq və bunun nəticəsində 380 iş yeri açılacaq. Masallıda Sənaye Məhəlləsinin təşkili üçün hazırlıq işləri aparılır.

Bütün bunlarla yanaşı, yerli potensial nəzərə alınmaqla digər regionlarda da texnoparkların, sənaye klasterlərin və sənaye məhəllərinin yaradılması imkanları araşdırılır.

"Azərbaycan Polad İstehsalı Kompleksi" QSC-də dəmir filizi hasilatında polad istehsalına qədər bütün istehsal prosesini əhatə edən layihələndirmə işləri davam etdirilir.

Bildiyimiz kimi, ölkə rəhbəri regionların inkişafının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda və digər müşavirələrdə kənd təsərrüfatı məhsulları ilə özünü təminat səviyyəsinin yüksəldilməsi, əlavə əkin sahələrinin dövriyyəyə cəlb edilməsi və məhsuldarlığın artırılması, pambıqçılığın, tütünçülüyün, çayçılığın, üzümçülüyün və digər ənənəvi sahələrin inkişafı istiqamətində bir sıra mühüm vəzifələr qarşıya qoyub. Bu vəzifələr iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı strategiyasının davam etdirilməsi, o cümlədən iqtisadiyyatın rəqabət qabilliyyətinin artırılması, sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması, yerli sahibkarlar tərəfindən daha çox sərmayə qoyulması, ixrac potensialının gücləndirilməsi və idxaldan asılılığın azaldılması, ərzaq təhlükəsizliyinin tam təmin olunması, sosial infrastruktur layihələrinin davam etdirilməsi, yeni iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlərin görülməsi və sair məsələləri əhatə edir.

Təhlillər də göstərir ki, qeyri-neft sektorunda iqtisadiyyatın şaxələndirilməsi ümumilikdə ölkə iqtisadiyyatının inkişafına, insanların rifah halının yüksəlməsinə hesablanıb. Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində yaradılmış siyasi və makroiqtisadi sabitlik, güclü iqtisadi potensial, vaxtında aparılan islahatlar, o cümlədən iqtisadiyyatın diversifikasiyası, neft amilindən asılılığın azaldılması, biznes mühitinin təkmilləşdirilməsi, xüsusi regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi ölkəmizin dünyanı bürüyən qlobal böhrana qarşı atdığı adekvat addımın real təzahürüdür. Bütün bunların sayəsində Azərbaycan 2016-cı ildə sosial-iqtisadi sahədə uğurlar qazanacaq.

Dövlətimizin başçısı regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində 2016-cı ildə gözlənilən proqnozlar barədə demişdir: "2016-cı il çox ciddi iqtisadi islahatlar ili olmalıdır və olacaqdır. Artıq müvafiq qərarlar qəbul edilmiş, qanunvericiliyə dəyişikliklər olunmuşdur. Mən bir neçə fərman, sərəncam imzalamışam. Əlavə sərəncamlar imzalanacaq ki, biz bu il iqtisadiyyatımızı daha da gücləndirək. bu islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatı şəffaflığına görə dünyanın aparıcı ölkələrinin iqtisadiyyatlarından fərqlənməsin. Əminəm ki, biz bunu birgə səylərlə təmin edəcəyik".

**Ramiz YUSİFLİ,**
**"Respublika".**